# Heydər Əliyev şəxsiyyəti akademik Rafael Hüseynovun təqdimatında

*Aparsa payi-mələx mur gər zəlilanə*
*Hədiyyə xoş görünər Həzrəti Süleymane.*

**(Mirzəağa Əliyevin Hüseynqulu Sarabskiyə ünvanladığı avtoqrafdan)**

Çoxsaylı elmi və elmi publisistik əsərlərin müəllifi, millət vəkili, AMEA-nın həqiqi üzvü, klassik Azərbaycan ədəbiyyatının görkəmli tədqiqatçısı, şərqşünas alim Rafael Hüseynovun imzası hamımıza tanış və doğmadır. Onun “Görməyən gözlərin aydınlığı”, “Əsas odur ki,xalq sizi sevir”, “Həsrət qatarı” kimi publisist yazıları,“İki ömrün işığı”adlı xatirələr kitabı və 100-lərlə bir-birindən maraqlı məqalələrimən və mənim kimi gənclərin sevərək oxuduğumuz və bəhrələndiyimiz qiymətli mənbələrdir. Akademik R.Hüseynovun çoxşaxəli yaradıcılığının içərisində Ulu Öndər Heydər Əliyev şəxsiyyətinin isə öz yeri, öz çəkisi var.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığımüvafiq sərəncamdan irəli gələrək ölkədə 2023-cü il “Heydər Əliyev ili” elan olundu, bir müddət öncə hamımız Ulu Öndərin 100 illiyini respublika səviyyəli bir bayram kimi qeyd etdik, hələ də bu əlamətdar günün təsiri ilə yaşayırıq.

2023-cü ilin ikinci yarısına qədəm qoymuşuq. Keçən müddət ərzində Ümummilli liderlə bağlı çox yazılar çap olunub, bir-birinin ardınca mədəniyyət xadimlərimiz, alimlər, görkəmli siyasətçilər Ulu Öndərlə bağlı maraqlı xatirələrini mətbu orqanlar vasitəsilə bölüşüb. Akademik R.Hüseynovun “525-ci qəzet”in səhifələrində dərc olunan silsilə məqalələri də “Heydər Əliyev İli”nin ən dəyərli yazı nümunələrindəndir.

“2023-cü il Heydər Əliyev ili” kimi başlandı. Unudulmaz Heydər Əliyevin bu il 100 yaşı tamam olacaq və mənim də bu il və yuvarlaq ildönümünə töhfəm onun haqqında təzə kitabım olacaq”,-deyəyazmağa başlayan akademikin xatirələr silsiləsi inci dənələri kimi bir-birinin ardınca düzüldü, “525-ci qəzet” də silsilə məqalələri dərc etdirməklə bizi ötən illərin hadisələri ilə tanış etdi.“Gözləri yol çəkən kənd”adlı məqaləsində müəllif Əliyevlərin Zəngəzur həyatını araşdırır,xatırladır,erməni vəhşiliyinin bu ailələrin isti yurdundan Cömərdli kəndindən, o dağlardan didərgin saldıqları illəri yada salır,Heydər Əliyevin ulu babalarının keşməkeşli həyatından bəhs edir:Həyatın ləngərini laxladan, sahmanını pozan iblislər olmasaydı...bəlkə, elə Cömərdli Kərbəlayı Cəfərlə urudlu Gülcahanın altı övladının böyüyü Əlirzanın da (Ulu Öndərin atası) ömrü bu dağlarda keçəcəkdi, onun da böyük ailəsinin digər uşaqları kimi oğlu Heydər də elə burada dünyaya göz açıb, bu kənddə yaşayacaqdı” Heydər Əliyevin uşaqlıq və gənclik illərinə işıq salan sonrakı məqalələr:- Heydər Əliyevi Heydər Əliyev edən...”

Ulu Öndər Heydər Əliyev hər zaman dövlət xadimlərinə, ziyalılara öz diqqət və qayğısını göstərib. Belə diqqət və qayğılardan biri haqqında akademik Rafael Hüseynov 13 aprel 2023-cü il tarixli “525-ci qəzet”də çap olunan “Yol ayrıcında” məqaləsində “Azərbaycanın tarixində bir dövrün bitib yeni bir dövrün başlamasından”,vəzifədən gedən Vəli Axundovdan, onun yerinə gələn Heydər Əliyevdən və onların ailələri arasındakı yaxın dostluq münasibətindən bəhs edir.

Müəllif yazır ki, Heydər Əliyevin sələfinə olan hörməti, ehtiramı Vəli Axundovun vəfatından sonra belə dəyişmədi.Bu,geniş,saf ürəkli böyük insana məxsus keyfiyyət idi.

Akademik məqalədə Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı il iyun ayının 21-də Azərbaycan Elmlər Akademiyasında Vəli Axundovun 80 illiyinə həsr edilmiş yubiley mərasimindən söhbət açır. O yazır:“Yubileydə çıxış edən Heydər Əliyev sanki çıxış etmirdi,dərs verirdi. “Tarix və insanlıq dərsi!”(Müdriklərə məxsus ifadələrdir!)

Çıxışında Ulu Öndər Heydər Əliyev bildirdi ki:“Təəssüflər olsun ki,-salonda əyləşən ziyalılarımızdan, Vəli Axundovun qohumlarından heç kimsə Vəli Axundovun yubleyinin keçirilməsi təşəbbüsü ilə müraciət etmədilər, yada salmadılar, bu məni çox məyus elədi. Xalqımızın dəyərli insanlarının xatirəsinə belə biganəliyi məni bu gün də narahat edir”.

Akademik Rafael Hüseynov məqaləsində Vəli Axundovun qızı Nigar xanımınmərasimdəki çıxışını yada salır, onun xatirələrində səslənən Vəli Axundovun Heydər Əliyevə olan etimadından söhbət açır.“Hətta atasının AzərbaycanınBirinci katibi vəzifəsindən uzaqlaşarkən Heydər Əliyevin bu vəzifəyə gətirilməsitəklifini irəli sürməsinin ona olan sonsuz etibarından irəli gəldiyini göstərirdi”. Beləliklə-Vəli Axundovunda təşəbbüsü ilə Heydər Əliyev Azərbaycanın birinci katibi oldu. Bu iki böyük insanın ikisinin də yol ayrıcında dayandığı 1969-cu ilin 14 iyulundan 27 il keçirdi. Bu 27 ildə çox şey dəyişmişdi.

Artıq Azərbaycan Heydər Əliyevin rəhbərliyi altında öz müstəqilliyini qazanmışdı...

Akademik Rafael Hüseynov “525-ci qəzet”də çap olunan “Nərmanovun arxasındakı dağ” adlı məqaləsində Ulu Öndər Heydər Əliyevin dahi şəxsiyyət Nəriman Nərimanovun xatirəsini yaşatmaq, daima uca tutmaq üçün göstərdiyi xidmətlərindən danışır.

1972-ci il may ayında Nərman Nərmanovun 100 yaşı tamam olurdu bu yubileyin münasibəti ilə Heydər Əliyev Moskvaya məktub göndərərək yubileyin təntənəli şəkildə keçirilməsini xahiş etdi, qarşılaşacağı çətinlikləri nəzərə alaraq bu yolda əlavə addımlar atdı.Ulu Öndərin siyasi bacarığı və səriştəsi nəticəsində Nəriman Nərimanovun 100 illik yubileyi təntənəli şəkildə qeyd olundu.

Heydər Əliyev bununla da kifayətlənməyərək, Moskvaya məktub yazaraq Nəriman Nərimanovun büstünün qoyulmasını xahiş etdi.Hər zamankı kimi maniələr ilə qarşılaşan Heydər Əliyev necə əsəbi günlər, nigaran saatlar keçirmişdi. Moskvada bürüncdən hazırlanmış Nəriman Nərimanovun heykəlinin kiçildilməsi istənilmişdi. Ulu Öndər qabaqcıl, uzaqgörən addımları nəticəsində Nəriman Nərimanovun büstünün qoyulmasına nail olur. Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqına xidmətləri bununla bitmədi, bu böyük insanın Ensiklopediyamızın ərsəyə gəlməsində xidmətləri əvəzsizdir.

Akademik Rafael Hüseynovun “525-ci qəzet” də çıxan “Millət gərək bunu bilə”məqaləsində Ensiklopediyamızın yaranmasından bu yolda Heydər Əliyevin XalqşairiRəsul Rzaya göstərdiyi köməklikdən bəhs edir : “O Ensiklopediyamızdan ki, onun yazılmasına Sovet İttifaqı tərəfindən icazə verilmirdi.Çünki bu xalqın kimlik kitabı,keçmişi,gələcəyi,bu günü idi”.Heydər Əliyev bu yolda dayanmadan çalışırdı

“O bilirdi ki,onun edə biləcəyi fədakarlıq,yalnız Azərbaycanın görkəmli bir sənətkarı uğrunda mübarizə deyil, bu, millətin və respublikanın bu gününü, gələcəyini, şərəfini qorumaq məsələsidi.Ulu Öndərin böyüklüyünü görə bilmək üçün Azərbaycan insanı bu həqiqətləri gərək bilə!...”

Akademik Rafael Hüseynovun “Nəsiminin bəxtiyar olduğu gün” adlı məqaləsi “525-ci qəzet”in 10 iyun tarixli sayında dərc edilmişdir. Bu məqaləni oxuduqca, böyük Azərbaycan şairi Seyid İmadəddin Nəsiminin 600 illik yubileyinin 1973-cü ilin noyabrında keçirilməsinə nail olmaq üçün Ulu Öndərin rastlaşdığı böyük maniələrlə necə çarpışdığının, yüksək siyasi gedişlərlə qarşısına qoyduğu müqəddəs amala, arzuya necə çatdığınınvə nəticədə dahi şairin Azərbaycanlı olduğunu nəinki sübut etməyə nail olduğunun, həm də bununla bərabər Azərbaycanı da bir daha dünyaya tanıtdığının şahidi oluruq.

1972-ci ilin 13 oktyabrında Azərbaycan KP MK-nın büro iclasında Nəsiminin 600 illiyinin keçirilməsi haqqında qərar qəbul edilir və noyabr ayında keçirilməsi nəzərdə tutulur. Yubiley isə bir il yubadılır. Bu bir ildə nələr baş verir?

Azərbaycan lideri, Ulu Öndər hansı maneələrlə rastlaşır?

Məqaləni oxuduqca bütün bu maneələr kino lenti kimi oxucunun gözünün qarşısından keçir. Rafael müəllim ilk növbədə görkəmli ədəbiyyatşünas, Azərbaycan əlyazmalarının aşiqi, xiridarı və mühafizi Salman Mumtazın 1926-cı ildə nəşr etdirdiyi və “Nəsiminin Şamaxıda doğulduğunu” göstərən dəyərli, tarixi məlumatla zəngin məqaləsinin təkrar nəşr edilməsindən sonra başlanan, müəllifin təbirilə desək, “meydan qızışmalarından,iddialardan,” guya şairin bakılı, gəncəli, dərbəndli, hətta türkmən olduğunu iddia edənlər haqqında məlumat verməklə oxucunu şok vəziyyətinə gətirir.

Türkmənlərin Mərkəzə göndərdikləri saysız-hesabsız məktubları, nəhayət, Mərkəzdə tərəddüd yaratmış, hələ 1968-ci ilin 8 oktyabrda Azərbaycan MK-nın qəbul etdiyi qərar da necə deyərlər, kor dalana dirənmişdir”. Nəhayət,“işarə bir başa Moskvadan gəlmiş ki, bir qədər əl saxlayın”.

Akademik oxucunu bu nigarancılıqdan qurtarır və maneələri aradan qaldıran şəxsiyyətin böyüklüyünü və nüfuzunu təqdim edir:

“Heydər Əliyev Nəsiminin 600 illiyi ilə bağlı qərarı büroda təsdiq edib, yubiley tədbirlərinə başlamaq imkanı qazanmaqçün bir başa SSRİ rəhbəri Leonid Brejnevlə danışmış, xeyir-duanı ondan almışdı. Yoxsa ki, yubileyin baş tutacağı artıq kor dalana dirənmişdi.Böyük Azərbaycan şairi Seyid İmadəddin Nəsiminin yubileyi ərəfəsində 1973-cu ilin sentyabrın 11-də şairin mərkəzdə möhtəşəm abidəsi ucaldıldı və çoxlu sayda xarici qonaqların iştirakı ilə yubileyi də keçirildi.

Akademikin məqaləyə verdiyi sonluqda şairin bir misrasına cavabı necə də mənalıdır:

“Gəldi yarım naz ilə sordu, Nəsimi necəsən?

“Necə olasıydı ki! O əziz gündə abidəyə çevrilərək yurduna qayıtmasının yolu açılmış, lap az sonra bu meydanda vüqarla ucalacaq, bütün gələcək boyu daim məğrur duruşuyla xalqı ilə üz-üzə dayanacaq İmadəddin Nəsimi, əlbəttə ki,bəxtiyar idi!”

Akademik Rəfail Hüseynov Ulu Öndərin siyasi xadimlərə,yazıcılara,-şairlərə olan diqqətindən bəhs edərkən, Heydər Əliyevin mətbuata və mətbuat işçilərinə olan diqqətini də unutmamışdı. Belə ki, akademik “525-ci qəzet”də çıxan “Ürəyin ehtiyacı” adlı məqaləsində bu haqda söhbət açmışdı.

Heydər Əliyev Azerbaycan respublikasına rəhbərliyə gəldiyi ilk gündən ömrünün sonuna qədər həmişə mətbuatla birgə çalışmış, hər zaman jurnalistlərlə həmsöhbət olmuş ,onların hər bir sualına səbrlə, təmkinlə cavab vermişdi. Bir, sözlə o,jurnalistlərin dostu idi.Ulu Öndər mətbuat işçilərinin axtarıcı, tədqiqatcıolanına,hər mövzunun dərin qatlarına enməyi bacaranına rəğbət bəsləyərdi.Müstəqillik illərində jurnalistlərə ehtiyacı olmadığı zamanda belə hər zaman getdiyi hər yerə təcrübəli jurnalist dəstəsi ilə gedərdi. Bu da onun jurnalistə olan böyük hörmətindən və sevgisindən irəli gəlirdi

Rafael müəllimin Ulu Öndər Əliyev və Nərman Nərmanov, Niyazi, Bülbül münasibətini əks etdirən..“Nərmanovun arxasındakı dağ”, “Kremlə Bakı məktubları”, “Onun yandırdığı ocaq”, “Ünvanı:Əbədiyyət” və digər məqalələri bu Böyük İnsanı vəsf edir.

Akademik Rafael Hüseynovun məqalələr silsiləsidavam edir və bir-birindən maraqlı,tarixi faktlarla zəngin olan Ulu Öndərin həyat və hərtərəfli fəaliyyətini əks etdirən bu xatirə-yazılara görə gənclər adından təqdirəlayiq işinə görə Rafael müəllimə minnətdarlığımızı bildiririk.



***Azadə ABBASOVA,***
***AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun əməkdaşı***